# AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ VƏ ÇİN XALQ RESPUBLİKASININ BAŞ GÖMRÜK ADMİNİSTRASİYASI ARASINDA AZƏRBAYCAN RESPUBLİKASINDAN ÇİN XALQ RESPUBLİKASINA İXRAC EDİLƏN QUŞ ƏTİ MƏHSULLARININ YOXLANILMASI, KARANTİNİ VƏ QİDA TƏHLÜKƏSİZLİYİ TƏLƏBLƏRİNƏ DAİR PROTOKOL

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra - AQTA) və Çin Xalq Respublikasının Baş Gömrük Administrasiyası (bundan sonra - ÇBGA) dostcasına məsləhətləşmələr yolu ilə Azərbaycan Respublikasından (bundan sonra – Azərbaycan) Çin Xalq Respublikasına (bundan sonra – Çin) ixrac edilən quş əti məhsullarının yoxlanılması karantini və qida təhlükəsizliyi tələblərinə dair aşağıdakı razılığa gəldilər:

**Maddə 1**

Azərbaycandan Çinə ixrac edilən quş ətinin yoxlanılması və karantin nəzarəti və Baytarlıq Sağlamlıq Sertifikatının verilməsi AQTA tərəfindən həyata keçirilir.

**Maddə 2**

AQTA aşağıdakı məlumatları ÇBGA-ya müntəzəm və ya tələb olunduqda təqdim edir:

1. Azərbaycandan Çinə ixrac ediləcək quş ətinin kəsimi, hissələrə bölünməsi, emalı və saxlanılması müəssisələrinin fəaliyyətini tənzimləyən qanunlar və qaydalar, o cümlədən onlara edilən dəyişikliklər, Çinə quş ətinin ixracı üçün qeydiyyatdan keçmiş müəssisələrin illik istehsal və ixrac statistikası və Çinə quş əti ixracı üçün müəssisələrdə Səlahiyyətli Orqan tərəfindən aparılan rəsmi nəzarət və yoxlama, o cümlədən, lakin bununla məhdudlaşmadan, aşkar edilmiş ciddi uyğunsuzluqlar və tətbiq edilmiş düzəlişedici tədbirlər barədə məlumatlar;

2. Azərbaycanın qanunvericiliyinə uyğun olaraq həyata keçirilən kimyəvi qalıqların (pestisid, baytarlıq preparatları və çirkləndiriciləri və s.), patogen

mikroorqanizmlərin və heyvan xəstəliklərinin milli illik monitorinq planı və o cümlədən monitorinqə cəlb edilən maddələr, tətbiq olunan laborator sınaq üsulları, standartları və prosedurları, eləcə də quş əti ilə bağlı sözügedən monitorinq planının illik hesabatları, ÇBGA-nın sorğusu əsasında, nüvə radiasiyasının və digər ətraf mühitin çirkləndiricilərinin monitorinq nəticələri də daxil edilir;

3. Bu Protokolun 3-cü maddəsində sadalanan quşların yoluxucu xəstəliklərinin profilaktikası və nəzarəti üzrə tədbirlər, habelə tətbiq edildiyi təqdirdə regionallaşmanın idarə edilməsi, o cümlədən regionallaşmaya uyğun xüsusi coğrafi yer, zona daxilindəki əlaqəli heyvanların sayı, ət ixracı müəssisələri və nəzarət məlumatlarının təfərrüatları və s.;

4. Quşçuluqla bağlı yoluxucu xəstəliklərin digər heyvanlarda epidemiya vəziyyəti.

AQTA quşçuluq sahəsində qida təhlükəsizliyinin təmin edilməsi üzrə inzibati sistemlərin Çinin tələblərinə davamlı uyğunluğunu gəlməsini təmin edir. Zərurət olduqda, ÇBGA Azərbaycanın qida təhlükəsizliyinin idarəetmə sisteminin qiymətləndirilməsi məqsədilə yerində və ya virtual auditlər və ya retrospektiv yoxlamalar aparmaq üçün müntəzəm və ya növbədənkənar qaydada ekspertlər təyin edə bilər. AQTA audit və yoxlama aparılması üçün lazımi köməklik göstərir.

Hər iki Tərəf səmərəli məlumatlandırma mexanizmi yaradır və müəssisələrin Çinin idxal tələblərini davamlı şəkildə qarşılamasını təmin etmək üçün məsələlərin araşdırılması və həlli, düzəlişedici və qabaqlayıcı tədbirlərin görülməsi istiqamətində bir-biri ilə əməkdaşlıq edir.

**Maddə 3**

Azərbaycan Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) "Quruda yaşayan heyvanların sağlamlığı Məcəlləsi"nin tələblərinə uyğun olaraq yüksək patogenli quş qripi və Nyukasl xəstəliklərindən azaddır və ÇBGA tərəfindən tanınır.

**Maddə 4**

Çinə ixrac üçün quş ətinin əldə edildiyi diri quşlar:

1. Azərbaycanda yumurtadan çıxarılır, böyüdülür və kəsilir, mənşə təsərrüfatlara

qədər izlənilə bilir və heç vaxt digər kənd təsərrüfatı heyvanları ilə birlikdə yerləşdirilmir.

2. Kəsimdən əvvəl son 12 ay ərzində yoluxucu bursit xəstəliyi, quş mikoplazmozu, quş xlamidiozu; quşların yoluxucu larinqotraxeiti, quş yoluxucu bronxiti, ördək virusu hepatiti, quşların qarın yatalağı və ishalı xəstəliyi, aşağı patogenli quş qripi ilə yoluxmanın kliniki əlamətlərinin mövcud olmadığı təsərrüfatlardan əldə edilir.
3. Kəsimdən əvvəlki son 6 ay ərzində Azərbaycan və Çinin heyvan sağlamlığı qaydalarında, ÜHST tərəfindən siyahısı verilən ev quşlarına aid digər xəbərdarlıq edilə bilən xəstəliklərə görə karantin, nəzarət və ya hərəkət məhdudiyyətinin tətbiq edilmədiyi təsərrüfatlardan əldə edilir.

**Maddə 5**

Çinə quş əti ixrac etmək niyyətində olan istehsal müəssisələri AQTA-nın nəzarəti altındadır və Azərbaycan və Çinin baytarlıq və ictimai sağlamlıq ilə bağlı müvafiq qanunlar və qaydalarına uyğundur (o cümlədən kəsim, doğrama, emal və saxlama, hissələrə bölünmə və emal inteqrasiya olunmuş müəssisədə həyata keçirilir).

Çinə quş əti ixrac edən müəssisələr Çin Xalq Respublikasının Qida Təhlükəsizliyi Qanununa və Çin Xalq Respublikasının Heyvanların və Bitkilərin Giriş və Çıxış Karantini haqqında Qanununa uyğun olaraq ÇBGA-da qeydiyyata alınır.

Çinə quş ətinin ixracına yalnız qeydiyyat tarixindən sonra və müvafiq qaydada təsdiq edilmiş müəssisələr tərəfindən istehsal olunduğu təqdirdə icazə verilir. ÇBGA-da qeydiyyatı olmayan müəssisələrdən Çinə quş ətinin ixracına icazə verilmir.

**Maddə 6**

Azərbaycanın səlahiyyətli baytarlıq müfəttişi Baytarlıq Sağlamlıq Sertifikatı vasitəsilə aşağıdakıları təsdiq edir:

1. Çinə ixrac olunan quş əti ÇBGA tərəfindən qeydiyyatdan keçirilmiş müəssisələrdə kəsilmiş, doğranmış, emal edilmiş və saxlanılmışdır.
2. Çinə ixrac üçün quş ətinin əldə edildiyi diri quşlara heç vaxt Tərəflərin qadağan etdikləri baytarlıq preparatları və ya yem əlavələri verilməmişdir.
3. Çinə ixrac üçün quş ətinin əldə olunduğu diri quşlar bu Protokolun 4-cü maddəsinə uyğun təsərrüfatlardan əldə edilmiş, Azərbaycan və Çinin müvafiq qanunlar və qaydalara uyğun olaraq kəsimdən əvvəl və sonrakı yoxlamalardan müsbət nəticələrlə keçmişdir. Kəsim üçün nəzərdə tutulan bütün diri quşlar sağlamdır və yoluxucu və/və ya parazitar xəstəliklərin kliniki əlaməti yoxdur, cəmdəklərdə və daxili orqanlarda zədələr yoxdur.
4. Azərbaycanda qalıqların milli monitorinqi planı həyata keçirilir və məhsulların tərkibində olan baytarlıq dərmanları, pestisidlər, ağır metallar, Davamlı Üzvi Çirkləndiricilər (DÜÇ) və digər zəhərli və arzuolunmaz maddələrin qalıq səviyyəsinin Azərbaycan və Çin tərəfindən müəyyən edilmiş Maksimum Qalıq Həddindən (MQH) aşağı olduğunu təsdiq edir.
5. Məhsullar Azərbaycanın və Çinin qanun və qaydalarına, habelə beynəlxalq standartlara uyğun olaraq patogen agentlərlə çirklənmədən azaddır.
6. Böyük ictimai sağlamlıq epidemiyası zamanı müəssisələr xammalın qəbulu, emalı, qablaşdırılması, saxlanması və daşınması prosesində məhsulların çarpaz çirklənməməsinin qarşısının alınması üçün beynəlxalq standartlara uyğun müdafiə və profilaktik prosedurları həyata keçirirlər.
7. Məhsullar gigiyenik və təhlükəsizdir, insan istehlakı üçün yararlıdır.

**Maddə 7**

Kəsilmək və Çinə ixrac edilmək üçün nəzərdə tutulan quşların daşınma dövründə (fermadan kəsim məntəqəsinə və orada daşınma daxil olmaqla) aşağıdakılarla təmasına icazə verilmir:

1. bu Protokolun 3-cü və 4-cü maddələrində qeyd olunmuş tələblərə uyğun gəlməyən hər hansı diri quşlar;
2. bu Protokolun 5-ci maddəsi üzrə qeydiyyatdan keçməmiş müəssisəyə məxsus hər hansı diri quşlar və ya digər heyvan növləri.

Çinə ixrac olunan quş ətinin aşağıdakılarla birlikdə emal edilməsinə icazə verilmir:

1. bu Protokolun 3-cü və 4-cü maddələrinin tələblərinə cavab verməyən heyvan mənşəli məhsullar;
2. qeydiyyatdan keçmiş müəssisə tərəfindən istehsal olunmayan məhsullar;
3. digər növ heyvanlardan alınan məhsullar.

Soyuducu anbarda yalnız Çinə ixracı nəzərdə tutulmuş quş ətinin saxlanması üçün müəyyən edilmiş xüsusi sahə mövcuddur.

## Maddə 8

Çinə ixrac olunan quş əti Azərbaycan və Çinin milli qida təhlükəsizliyi standartları və beynəlxalq gigiyena standartlarına uyğun olaraq, istifadə olunmamış qablaşdırma materialları ilə qablaşdırılmalıdır.

Çinə ixrac edilən quş əti Çin və ingilis, yaxud Azərbaycan və Çin dillərində məhsulun adı, mənşə ölkəsi, müəssisənin qeydiyyat və partiya nömrələri qeyd edilən etiketi olan ayrıca daxili qablaşdırmaya malik olur.

Xarici qablaşdırmada Çin və ingilis, yaxud Azərbaycan və Çin dillərində mənşə ölkəsi, məhsulun adı, müəssisənin qeydiyyat nömrəsi, partiyanın nömrələri, spesifikasiyalar, istehsal yeri (əyalət, qəsəbə, şəhər qeyd olunmalı), təyinat yeri (Çin Xalq Respublikasına qeyd olunmalı), istehsal tarixi (il, ay, gün daxil olmaqla), saxlama müddəti və saxlama temperaturu qeyd edilmiş etiket olur. Bağlamalarda Azərbaycanın rəsmi yoxlama və karantin nişanları olur.

Qablaşdırılmış quş ətinin etiketləri Çin standartlarına və qablaşdırılmış qida məhsullarının etiketlənməsinə dair normativ tələblərə uyğundur.

## Maddə 9

Patogen mikroorqanizmlərin və/və ya zəhərli və zərərli maddələrlə çirklənməsinin qarşısını almaq üçün Çinə ixrac edilən quş əti qablaşdırma, saxlama və daşınma zamanı Azərbaycan və/və ya Çinin sanitariya tələblərinə cavab verir.

Dondurulmuş quş ətinin saxlanması və daşınması müvafiq temperaturda aparılır və məhsulların daxili temperaturu mənfi 15 dərəcə selsidən (-15 °C) yuxarı olmamalıdır.

Yükləmə tamamlandıqdan sonra və daşınmadan əvvəl konteyner Azərbaycanın səlahiyyətli orqanlarının nəzarəti altında möhürlənməli, möhür nömrəsi Baytarlıq Sağlamlıq Sertifikatında göstərilməlidir. Daşınma zamanı məhsulların qablaşdırması açıla və ya dəyişdirilə bilməz.

## Maddə 10

Çinə ixrac edilən quş əti məhsulunun hər bir konteyneri məhsulun Azərbaycan və Çinin baytarlıq və ictimai sağlamlıq tələb və qaydalarına, habelə bu Protokolun müvafiq tələblərinə uyğun olduğunu təsdiq edən ən azı bir Baytarlıq Sağlamlıq Sertifikatının əsli ilə müşayiət olunmalıdır.

Baytarlıq Sağlamlıq Sertifikatı Azərbaycan, Çin və ingilis dillərində yazılır və Sertifikat doldurularkən ingilis dili təsdiqedici dil olaraq seçilir. Sertifikatın formatı və məzmunu əvvəlcədən Tərəflər arasında qarşılıqlı razılaşdırılır.

Qeydə alma məqsədləri üçün AQTA ÇBGA-ya rəsmi yoxlama möhürü və ya yoxlama şərti işarə/nişanlarının nümunələri, Baytarlıq Sağlamlıq Sertifikatının nümunələri, səlahiyyətli baytarlıq müfəttişlərinin siyahısı, sertifikatda saxtakarlığa qarşı qorunma qaydalarına dair təlimatlar və sertifikatların elektron məlumatlarının çatdırılacağı elektron poçt ünvanı təqdim edilir. Yuxarıda göstərilənlərə hər hansı dəyişikliklər olarsa, AQTA dəyişikliklərin qüvvəyə minməsindən ən azı bir ay əvvəl ÇBGA-nı xəbərdar edir.

Çində sərhəd yoxlamasını asanlaşdırmaq üçün AQTA hər bir Baytarlıq Sağlamlıq Sertifikatının elektron məlumatını sertifikatın verilməsindən sonrakı 48 saat ərzində rəsmi kanallar vasitəsilə ÇBGA-ya ötürür. AQTA elektron məlumatların düzgün və təhlükəsiz olmasına zəmanət verir.

## Maddə 11

1. Azərbaycanda quşçuluq sahəsində bu Protokolun 3-cü maddəsində əksini

tapmış quşların yoluxucu xəstəliyi baş verərsə, AQTA quş ətinin Çinə ixracını, habelə müvafiq Baytarlıq Sağlamlıq Sertifikatının imzalanmasını və verilməsini dərhal dayandırır, təsirə məruz qalmış məhsulları və potensial təsirə məruz qalan məhsulları geri çağıraraq ÇBGA-ya məlumat verir və ÇBGA-ya xəstəliyin vəziyyəti və həyata keçirilən nəzarət tədbirləri haqqında ətraflı hesabat təqdim edir.

2. Azərbaycan daxilində aşağıdakı epidemiyalar olarsa,

i) bu Protokolun 4-cü maddəsinin 2-ci bəndində sadalanan yoluxucu və parazitar quş xəstəliyi;

ii) Çinin milli qanunvericiliyi ilə Çin Xalq Respublikasına gətirilən və quş əti ilə ötürülə bilən Heyvanlar üçün Karantin Xəstəlikləri Siyahısında B siyahısı kimi müəyyən edilmiş xəstəliklər;

iii) ixrac edilən quş əti məhsullarına təsir göstərə bilən və ciddi ictimai narahatlıq doğuran qida çirklənməsi hadisəsi və ya ciddi ictimai sağlamlıq hadisəsi.

AQTA müvafiq məhdudlaşdırılmış zonada / bölmədə istehsal olunmuş quş ətinin ixracını dərhal dayandırır, Çinə ixrac üçün nəzərdə tutulmuş quş ətinin Baytarlıq Sağlamlıq Sertifikatlarının imzalanmasını və verilməsini dayandırmalı, təsirə məruz qalmış məhsulları və potensial təsirə məruz qala biləcək məhsulları geri çağırmalı, ÇBGA-a məlumat verir və ÇBGA-a xəstəliyin və insidentin araşdırılması, tətbiq olunmuş nəzarət tədbirləri barədə məlumatları əks etdirən ətraflı hesabat təqdim edir.

3. Yuxarıda qeyd olunan müvafiq risklər aradan qaldırıldıqdan sonra AQTA beynəlxalq təcrübəyə uyğun olaraq, ixracın bərpası şərtləri ilə bağlı ÇBGA ilə danışıqlar apara bilər.

**Maddə 12**

Çinə ixrac edilən quş ətinin ÇBGA tərəfindən bu Protokolun tələblərinə uyğun gəlmədiyi aşkar edilərsə, ÇBGA dərhal AQTA-ya məlumat verərək və məhsulların geri qaytarılması, məhv edilməsi və ya utilizasiyası üçün tədbirlər görə bilər. Əgər Çinə ixrac edilən quş ətinin Azərbaycanın təsdiq olunmuş müəssisələri tərəfindən istehsal edilmədiyi aşkar edilərsə, ÇBGA həmin müəssisənin ÇBGA-dakı qeydiyyatını ləğv edir. Əgər ÇBGA tərəfindən Çinə ixrac edilən quş ətinin Azərbaycan mənşəli olmadığı, lakin Azərbaycanın təsdiq olunmuş müəssisələri

tərəfindən ixrac edildiyi aşkar edilərsə, ÇBGA həmin müəssisənin qeydiyyatını ləğv edir və Azərbaycandan Çinə quş əti ixracını dayandırır.

AQTA uyğunsuzluğun aradan qaldırılmasında ÇBGA ilə əməkdaşlıq edir və uyğunsuzluğun təkrarlanmasının qarşısını almaq üçün düzəlişedici tədbirlər görür.

**Maddə 13**

Bu Protokolun məqsədləri üçün quş əti dedikdə, dondurulmuş yeməli quş cəmdəyi və onun hissələri (kəsim və qanaxmadan sonra lələkləri, daxili orqanları, başı və ayaqları çıxarılmış) və quşun yeməli içalatı nəzərdə tutulur.

Azərbaycandan Çinə ixracına icazə verilən quş və onun yeməli içalatı Əlavə I-də sadalanır.

**Maddə 14**

Bu Protokolun 1-ci Əlavəsində qeyd edilən Çinə ixrac edilə bilən qida üçün yararlı quş ətinin əlavə məhsulları 2-ci Əlavədə göstərilən sanitar emal tələblərinə cavab verməlidir. 1-ci Əlavə və 2-ci Əlavə bu Protokolun ayrılmaz hissələridir,ə AQTA və ÇBGA-nın qarşılıqlı razılığı ilə rəsmi yazılı məktubların mübadiləsi yolu ilə onlara düzəlişlər edilə bilər.

Bu Protokol beynəlxalq müqavilə deyil və beynəlxalq hüquqla tənzimlənən hüquq və öhdəliklər yaratmır.

**Maddə 15**

Bu Protokol imzalandığı tarixdən qüvvəyə minir və beş (5) il müddətə qüvvədə qalır, Tərəflərin qarşılıqlı razılığı ilə ona dəyişikliklər edilə bilər.

Tərəflərdən biri bu Protokolun bitmə tarixindən ən azı altı (6) ay əvvəl digərinə onu dəyişdirmək və ya ləğv etmək niyyəti barədə bildiriş verməzsə, bu Protokol avtomatik olaraq beş (5) illik müddətlər üçün yenilənir. Bir Tərəf digər Tərəfə yazılı bildiriş verməklə bu Protokolu ləğv edə bilər; bu halda, Protokol digər Tərəfin yazılı bildirişi aldığı tarixdən altı (6) ay sonra qüvvəsini itirir.

**Maddə 16**

Protokol Pekin şəhərində, 11 İyun 2026-cı il tarixində hər biri Azərbaycan, çin və ingilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır. Bütün mətnlər bərabər autentikdir. Bu protokolla bağlı yaranan hər hansı fikir ayrılığı iki tərəf arasında məsləhətləşmələr yolu ilə həll edilir.

**Azərbaycan Respublikasının**
**Qida Təhlükəsizliyi Agentliyi**
**adından**

**Çin Xalq Respublikasının**
**Baş Gömrük Administrasiyası**
**adından**

## Əlavə 1

**Azərbaycandan Çinə ixracı nəzərdə tutulan istehlak üçün yararlı quş əti və onun istehlaka yararlı olan əlavə məhsullarının Siyahısı**

1. Dondurulmuş quş əti: dondurulmuş toyuq əti (bütöv və ya dondurulmuş toyuq döş əti, dondurulmuş toyuq ayaqları istisna olmaqla hissələr şəklində), dondurulmuş toyuq döş əti, dondurulmuş toyuq ayaqları, dondurulmuş bütöv toyuq (daxili orqanlar, mədə və bağırsaq kimi həzm orqanları istisna), bütöv toyuq qanadı və hissəsi (cəmdəyə birləşən hissə, orta hissə, iki birləşmiş hissə, uc hissə).
2. İstehlaka yararlı olan quş ətinin əlavə məhsulu: dondurulmuş toyuq ayağı, toyuq boğazı, toyuq qığırdağı (toyuğun diz qığırdağı, yumşaq döş sümüyü), toyuq dərisi, toyuq sümüyü, rafinə edilməmiş toyuq piyi.

## Əlavə 2

**Azərbaycandan Çinə ixracı nəzərdə tutulan istehlaka yararlı olan quş ətinin əlavə məhsullarının sanitariya emal tələbləri**

1. **Tətbiq sahəsi**
Bu Əlavədəki tələblər bu Protokolun 1-ci əlavəsində sadalanan istehlaka yararlı olan quş ətinin əlavə məhsuluna tətbiq olunur.

2. **Ümumi tələblər**

2.1 Azərbaycan və Çin qanun və qaydalarına uyğun olaraq, bu tələblərdə müəyyən edilən **istehlaka yararlı olan quş ətinin əlavə məhsulu** insan istehlakı üçün yararlıdır.

2.2 Azərbaycan xüsusilə Çinə ixrac ediləcək **istehlaka yararlı olan quş ətinin əlavə məhsul** üçün qida təhlükəsizliyi və sağlamlığın idarə edilməsi sistemini yaratmışdır;

2.3 Çinə ixracı nəzərdə tutulan **istehlaka yararlı olan quş ətinin əlavə məhsulu** mənşə yerini izləmək üçün effektiv identifikasiya sistemi tətbiq etmiş fermalardan, kəsim məntəqələrindən və müəssisələrdən əldə edilmişdir;

2.4 Yalnız ÇBGA-da qeydiyyatdan keçmiş müəssisələrə Çinə **istehlaka yararlı olan quş ətinin əlavə məhsulunun** ixracına icazə verilir və onların emal otaqları və ya sahələri də müstəsna olaraq qida üçün yararlı olan quş ətinin əlavə məhsulu üçün qeydiyyata alınmalıdır;

2.5 Çinə ixracı nəzərdə tutulan **istehlaka yararlı olan quş ətinin əlavə məhsulu** Azərbaycanın qalıqların milli monitorinq planının tətbiq edildiyi heyvanlardan əldə edilməlidir. Bu planın nəticələrinə əsasən təsdiq oluna bilər ki, **istehlaka yararlı olan quş ətinin əlavə məhsulun**da insan sağlamlığı üçün təhlükəli ola bilən dərman, kimyəvi qalıq maddə və/və ya digər zəhərli və zərərli qalıq maddə yoxdur;

2.6 Çinə ixracı nəzərdə tutulan **istehlaka yararlı olan quş ətinin əlavə məhsulu**, insan istehlakı üçün nəzərdə tutulmuş qida təhlükəsizliyi tələblərinə uyğun olaraq emal olunmalı və idarə edilməlidir. Bu Əlavənin müvafiq müddəalarına uyğunluğu təmin etmək üçün HACCP-a əsaslanan qida təhlükəsizliyi idarəetmə sistemi tətbiq edilməlidir.

3. **İstehlaka yararlı olan quş ətinin əlavə məhsulunun emalı tələbləri**

**3.1 Emal sahələri, qurğular və avadanlıqlar**

3.1.1 Çinə ixracı nəzərdə tutulan **istehlaka yararlı olan quş ətinin əlavə məhsulu ayrıca istehlaka yararlı quş əti** emalı otağında (otaqlarında) və ya **istehlaka yararlı olmayan quş ətinin əlavə məhsulu** emalı otağından (otaqlarından) nisbətən təcrid olunmuş sahələrdə emal edilməlidir. İstehlaka yararlı olan quş ətinin əlavə məhsulunun emalı otağı və onun sanitar şəraiti Azərbaycanda **istehlaka yararlı olan quş ətinin əlavə məhsulu** üçün nəzərdə tutulmuş sanitar normalara uyğun olmalıdır;

3.1.2 **İstehlaka yararlı olan quş ətinin əlavə məhsulu**nun emalı otağının ölçüsü emal gücünə uyğun olmalıdır. Avadanlıq və qurğular **istehlaka yararlı olan quş ətinin əlavə məhsulu** üzrə gigiyena və sanitariya tələblərinə cavab verməlidir. Çirkli emal axınları və təmiz emal axınları çarpaz çirklənmənin qarşısı alınacaq qədər təcrid edilməlidir;

3.1.3 Müəssisə **istehlaka yararlı olan quş ətinin əlavə məhsulu**nun ilkin soyudulmasını həyata keçirirsə, xüsusi ilkin soyuducu qurğular və qablaşdırma otağı mövcud olmalıdır.

3.2. İşçi heyət üzrə sanitariya tələbləri

3.2.1 İstehlaka yararlı olan quş ətinin əlavə məhsulunu ixrac edən müəssisələrin quş ətinin əlavə məhsulunun müvafiq emal prosedurları üzrə ixtisaslaşmış peşəkar işçi heyəti olmalıdır;

3.2.2 İşçi heyət məhsulların təmizlik vəziyyəti onların emal otağından fərqli olan otaqlara və ya sahələrə keçməməlidirlər. Onlar gigiyena qurğusundan keçmədən, qoruyucu geyim olmadan və gözlə görünən çirklənmiş geyimi dəyişmədən fərqli gigiyenik vəziyyətdə olan iş otaqlarına birbaşa keçməməlidirlər.

**3.3 Temperatur tələbi**

3.3.1 **İstehlaka yararlı olan quş ətinin əlavə məhsulunun** emalı üçün otaq(lar)ın temperaturu ayaqların qaynar suya salınması üçün otaq istisna olmaqla, 12 dərəcə selsidən (12 °C) yuxarı olmamalıdır. Şok dondurucunun temperaturu mənfi 28 dərəcə selsidən (-28 °C) aşağı olmalıdır. Çillerin temperaturu mənfi 18 dərəcə selsidən (-18 °C) aşağı olmalıdır;

3.3.2 **İstehlaka yararlı olan quş ətinin əlavə məhsulunun** dondurulmasına nəzarət Azərbaycan, Çin tərəfindən və bu Protokolda istehlaka yararlı olan quşçuluq məhsulları üçün nəzərdə tutulmuş nəzarət tədbirləri ilə uyğun olmalıdır;

3.3.3 Avadanlıqların təmizlənməsi üçün nəzərdə tutulan suyun temperaturu 40 dərəcə selsidən (40 °C) yuxarı olmalıdır. Avadanlıqların sterilizasiyası üçün istifadə olunan suyun temperaturu 82 dərəcə selsidən (82 °C) aşağı olmamalıdır;

3.3.4 Müəssisədə qida üçün yararlı olan quşların daxili orqanlarının ilkin soyudulması aparılırsa, ilkin soyuduldu qdan sonra daxili temperatur 3 dərəcə selsi (3 °C) və ya daha aşağı səviyyədə saxlanılmalıdır;

3.3.5 **İstehlaka yararlı olan quş ətinin əlavə məhsulu** sanitar tələblərə cavab verən soyuducu nəqliyyat vasitəsində (vasitələrində) daşınmalıdır;

3.3.6 İxrac edilən **istehlaka yararlı olan quş ətinin əlavə məhsulunun** daxili temperaturu daşınma zamanı mənfi 15 dərəcə selsidən (-15 °C) isti olmamalıdır.

**3.4 Hazır məhsula olan tələblər**

3.4.1 **İstehlaka yararlı olan quş ətinin əlavə məhsulun** üzərindəki hər hansı görünən iltihab, axma, zədələnmə, ifrazat, mədə-bağırsaq möhtəviyyatı və ya yad cisimlər (məsələn, plastik, metal və qalıq yem və s.) qablaşdırmadan və dondurulmadan əvvəl kəsilməklə və ya yuyulmaqla təmizlənməlidir. Hazır əlavə məhsul eyni otaqda qida üçün yararlı olmayan əlavə məhsul ilə birlikdə emal edilməməlidir;

**3.4.2** Çinə ixracı nəzərdə tutulan **istehlaka yararlı olan quş ətinin əlavə məhsulu** müxtəlif növ məhsullara uyğun olaraq ayrıca qablaşdırma materialında qablaşdırılmalı və müəyyən edilə bilən nişanla xüsusi sahədə saxlanmalıdır.

### 3.5 Emalın sanitar nəzarəti

Hər bir müəssisə aşağıdakı cədvələ uyğun olaraq Çinə ixrac üçün müxtəlif **istehlaka yararlı olan quş ətinin əlavə məhsulu**ndan asılı olaraq emalı prosesində nəzarət üçün mikrobioloji monitorinq planını həyata keçirməlidir. Müəssisənin operatoru məlumat bazasını yaratmaq üçün mikrobioloji nəticələri toplamalı, qeyd etməli və vaxtaşırı təhlil etməlidir.

### 3.5.1 Nümunə götürmə

Beş (5) qablaşdırma qutusu və ya toplu nümunələr kəsmə üsulu ilə təsadüfi şəkildə toplanmalıdır. Nümunələr bağlamanın müxtəlif hissələrindən alınaraq, yaxşıca qarışdırılmalı, sonra çəkisi ən azı beş yüz qram (500 q) olan bir nümunədə birləşdirilməlidir.

### 3.5.2 Saxlama və daşınma

Nümunələr buz paketləri və ya buzlu su ilə izolyasiya qablarına yerləşdirilməlidir. Nümunə dondurulmamalı və ya buz paketi ilə birbaşa təmasda olmamalıdır. Nümunə götürüldükdən sonra bir (1) saat ərzində laboratoriyada müayinə edilməli, əks halda nümunə 24 saatdan çox olmamaq şərti ilə sıfır dərəcə selsi (0 °C) ilə 4 dərəcə selsi (4 °C) arasında saxlanılmalıdır.

### 3.6 Növbəti addımlar

Nəticənin qeyri-qənaətbəxş olduğu müəyyən edilərsə, aşağıdakı tədbirlər tətbiq edilməlidir:

**3.6.1.** Səbəbini müəyyən etmək üçün daxili keyfiyyətə nəzarət qeydlərinin (məsələn, temperatur, sanitar və digər anomaliyalar) yoxlanılması;

**3.6.2.** Müvafiq tədbirlərin görülməsi (məsələn, düzəliş fəaliyyətlərin və ya düzəldici tədbirlərinin effektivliyini yoxlamaq üçün daha çox nümunənin toplanması);

**3.6.3.** Uyğunsuzluğun səbəblərinin və görülmüş tədbirlərin ən azı iki (2) il ərzində qeydiyyatının aparılması.

**Cədvəl: İstehlaka yararlı quş ətinin emalı prosesinə nəzarət üçün mikrobioloji monitorinq**

| Mikroorqanizm | Nümunə planı | | Limit | | Nümunə tezliyi | | Nümunənin toplanacağı mərhələ |
|---|---|---|---|---|---|---|---|
| | **n** | **c** | **m** | **M** | **Orijinal tezlik** | **Nəticələr qənaətbəxş olarsa, tezlik azaldıla bilər** | |
| APC | 5 | 2 | $5\times10^5$CFU/g | $5\times10^6$CFU/g | Hər bir kateqoriya üçün ardıcıl 6 həftə ərzində həftədə 5 nümunə toplamaq | Hər bir kateqoriya üçün hər 2 həftədən bir 5 nümunə toplamaq | Emalın sonu |
| Escherichia coli | 5 | 2 | 50 CFU/g | 500 CFU/g | Hər bir kateqoriya üçün ardıcıl 6 həftə ərzində həftədə 5 nümunə toplamaq | Hər bir kateqoriya üçün hər 2 həftədən bir 5 nümunə toplamaq | Soyutma/dondurmadan əvvəl |
| Salmonella | 50 | 7 | Absence in 25 g | / | Hər bir kateqoriya üçün ardıcıl 10 həftə, ümumilikdə 30 həftə olmaqla həftədə 5 nümunə toplamaq | Hər bir kateqoriya üçün hər 2 həftədən bir 5 nümunə toplamaq | Növbəti soyutma/dondurma |

*: n=nümunəni təşkil edən vahidlərin sayı; c=m və M arasında miqdarı olan nümunə vahidlərinin sayı

**Yoxlama nəticələrinin izahı:**

- Bütün miqdar ≤m olduqda, qənaətbəxş
- c/n miqdarının maksimumu m və M arasında və digər miqdar ≤m olduqda, məqbul
- bir və ya daha artıq miqdar >M və ya m və M arasında olan c/n miqdardan artıq olduqda, qeyri-qənaətbəxş.